VOLTAJ MMC
www.voltajmmc.com

**TEXNİKİ VƏRƏQ №PPBZ-KNŞ-FRM-100150200**

**TARİX: 06.03.2026**

**STANDART: GRI GM13**

# HDPE GEOMEMBRAN – 1.0/1.5/2.0mm

## MƏHSULUN TƏSVİRİ:

1,0 mm, 1,5 mm və 2,0 mm qalınlıqlarda istehsal olunan yüksək sıxlıqlı polietilen (HDPE) geomembran tam su keçirməz hidroizolasiya materialıdır. Müasir ekstruziya texnologiyası ilə istehsal olunur və yüksək mexaniki möhkəmliyi, elastikliyi, kimyəvi və bioloji təsirlərə, həmçinin ultrabənövşəyi şüalara davamlılığı ilə seçilir. Geomembran torpağın və suyun çirklənmədən etibarlı qorunmasını təmin edir, uzunmüddətli istismar zamanı fiziki və kimyəvi xüsusiyyətlərini qoruyur və müxtəlif mühəndis-geotexniki layihələrdə etibarlı hidroizolasiya və antifiltrasiya maneəsi kimi tətbiq edilir.

## TƏTBİQ SAHƏLƏRİ:

1,0 mm, 1,5 mm və 2,0 mm qalınlıqlarda olan yüksək sıxlıqlı polietilen (HDPE) geomembran bərk məişət və sənaye tullantıları poliqonlarında, drenaj və yağış sularının yığma hovuzlarında, şlam və tullantı anbarlarında, hidrotexniki qurğularda (kanallar, bəndlər, su anbarları), həmçinin neft bazaları, kimyəvi maddələrin saxlanma obyektləri və sənaye sahələrində torpağın və yeraltı suların çirklənmədən qorunması üçün etibarlı hidroizolasiya və antifiltrasiya maneəsi kimi tətbiq olunur. Material günəş şüalanmasına, aqressiv mühitlərə və mexaniki yüklərə qarşı yüksək davamlılıq göstərir.

### TEXNİKİ MƏLUMATLAR

| Parametr | Alınan dəyər | | | |
|---|---|---|---|---|
| | **1.0mm** | **1.5mm** | **2.0mm** | Sınaq metodu |
| Vizual görünüş | Uyğundur | Uyğundur | Uyğundur | EN 1850-2 |
| Divar qalınlığı (mm) | 1.0 mm ±5% | 1.5 mm ±5% | 2.0 mm ±5% | ASTM D5199 |
| Ölçmələrin orta göstəricisi nominal qalınlığın 95%-dən az olmamalıdır. | | | | |
| Dartılmada möhkəmlik — axmada | 16 N/mm | 24 N/mm | 31 N/mm | ASTM D6693 |
| Dartılmada möhkəmlik — qırılmada | 29 N/mm | 43 N/mm | 57 N/mm | ASTM D6693 |
| Cırılma müqaviməti (N) | 180 N | 220 N | 275 N | ASTM D1004 |
| Dartmada nisbi uzanma (%) | 950% | 950% | 950% | EN ISO 6259 |
| Deşilməyə qarşı müqavimət | 356 N | 534 N | 712 N | ASTM D4833 |
| Sabit yükdə deşilmə (kq) | 50 kq | 80 kq | 100 kq | ASTM D4833 |
| Yüksək temperaturda xətti ölçü dəyişməsi (%) | 0.8% | 0.8% | 0.8% | ASTM D1204 (100 °C, 1 h) |
| Ərimə axma indeksi | 0.80 | 0.80 | 0.80 | EN ISO 1133 |
| Texniki karbonun miqdarı (%) | 2.1% | 2.1% | 2.1% | ASTM D1603 və ya D4218 |
| Oksidləşmə induksiya vaxtı | ≥ 100 min | ≥ 100 min | ≥ 100 min | ASTM D3895 (200°C, saf $O_2$, 1 atm) |
| Aşağı temperaturda kövrəklik | -77 °C | -77 °C | -77 °C | ASTM D746 |
| Yüksək temperaturda ölçü sabitliyi | ±2 % | ±2 % | ±2 % | ASTM D1204 |
| Sıxlıq | 0.945 | 0.945 | 0.945 | ASTM D1505 və ya D792 |

## DAŞINMA QAYDALARI:

Geomembranlar xüsusi qoruyucu örtüklü rulonlar şəklində daşınmalı, nəqliyyat vasitələrində üfüqi vəziyyətdə bərkidilməli və mexaniki zədələrdən, günəş şüalarından və açıq alovdan qorunmalıdır. Daşınma zamanı kəskin əyilmə, deşilmə və ya zərbələrə yol verilməməlidir.

## SAXLAMA ŞƏRAİTİ:

Məhsul quru, sərin, günəş şüalarından qorunan, havalandırılan anbar şəraitində saxlanılmalıdır. Rulonlar üfüqi, hamar səth üzərində yerləşdirilməli, kəskin alətlərlə təmasdan qorunmalıdır.saxlanılmalıdır.

## QABLAŞDIRMA HAQQINDA MƏLUMAT:

Məhsullar daşınma və saxlanma zamanı təhlükəsizliyi təmin etmək məqsədilə uyğun formada qablaşdırılır. Qablaşdırma materialı məhsulu mexaniki zədələrdən, tozdan, nəmdən və günəş şüalarından qoruyur, həmçinin rulonların daşınması və yığılması prosesində rahatlıq yaradır.